

BIZ

BİRLİKDƏ IMPERIAL BRANDS ŞİRKƏTİNİN TƏRKİB HİSSƏSİYİK

IMPERIAL BRANDS





DAVRANIŞ KODEKSIMIZ

SENTYABR 2024

MÜNDƏRİCAT

- Məqsədimiz, Vizyonumuz və Davranışlarımız
- Hörmətli həmkar
- Giriş
- Etik qərarlar qəbul etmək
- "Danış" kanalı

- Müştərilərimiz
- Bizim əməkdaşlarımız
- Şirkətimizin aktivləri və nüfuzu
- İşgüzar fəaliyyətdə dürüstlüyümüz
- Ətraf mühit və cəmiyyət

- Lüğət
- Siyasətlər və Daxili Resurslar



MƏQSƏDİMİZ, VİZYONUMUZ VƏ DAVRANIŞLARIMIZ



MƏQSƏDİMİZ

"İstirahət və həzz anları üçün daha sağlam gələcəyə yol açmaq."

VİZYONUMUZ

"Məsuliyyət, diqqət və seçimə əsaslanan güclü rəqabət qabiliyyətli biznes qurmaq."

DAVRANIŞLARIMIZ

"Davranışlarımız necə fəaliyyət göstərməli, qərarlar verməli və bir-birimizlə necə davranmalı olduğumuzu müəyyənləşdirir."

DAVRANIŞLARIMIZ



Müştəridən **başlayaq**


- Gördüyünüz hər bir işdə müştərini nəzərə alın
- Müştəriləri anlamağı öz peşənizə çevirin
- Seçiminizdə qətiyyətli olun - maraqlanın, suallar verin, faktlar və məlumatlardan istifadə edin, düşüncənizi sınamaq üçün alternativ fikirləri öyrənin
- Qərar qəbul edərkən məlumat və intuisiyalarınızı, həmçinin instinkt və təcrübənizi birləşdirin
- Gördüyünüz işi keyfiyyətlə görün

Təməl yanaşma

Gördüyümüz hər bir işdə müştəri diqqət mərkəzindədir – biz onların sayəsində buradayıq

Müştərilərimizi tanımaq gələcək uğurlara yol açmaq üçün şərtdir

Düzgün qərarlar məlumat, intuisiya və təcrübə birləşdikdə verilir



Qarşınıza məqsəd qoyaraq **əməkdaşlıq edin**


- Öz bilik və təcrübələrinizi digərləri ilə bölüşün
- Həmkarlarınızı dinləyin və onların ekspertizasına hörmət edin
- Diktə etməyin, təsir edin
- Digərlərinə inanın: hər şeyə nəzarət etməli deyilsiniz
- Yerli gündəlikləri IMB ehtiyacları ilə tarazlaşdırın (ümumi mənzərəni göz önünə gətirin)
- Daxildə deyil, xaricdə rəqabət aparın

Təməl yanaşma

Digərlərinin uğurlu olmasına yardım etmək işimin bir hissəsidir

Hər şeyə nəzarət etməli deyiləm

Digərləri ilə əməkdaşlıq etmək hamımız üçün daha yaxşı nəticə gətirəcəkdir



Məsuliyyəti üzərinizə **inamla götürün**

- Məsuliyyətli olun və başqalarını da məsuliyyətə cəlb edin
- Vədinizi yerinə yetirin
- Diqqətinizi daim razılaşdırılmış prioritetlərə cəmləyin
- Artıq önəmli olmayan məsələləri buraxın
- Yaradıcı şəkildə xüsusi yanaşma tələb edin və suallara hər zaman açıq olun
- Digərlərini günahlandırmayın

Təməl yanaşma

Öhdəlik öhdəlikdir

Fikrimi bildirə bilərəm

Düzgün addım atdıqda töhfəm ədalətli şəkildə qiymətləndirilir



Səmimi olun, **heç kimi kənarda qoymayın**

- İnsanları qarşılamaq üçün vaxt ayırın
- Digərlərinin gətirdiklərini qəbul edin və qiymətləndirin
- İstisna olmadan bir-birinizin qeydinə qalın
- Fərqləri güc kimi qeyd edin
- Əsl üzünüzü göstərin
- Gərgin söhbətlərə dürüst, səmimi və təvazökar yanaşma tələb edin

Təməl yanaşma

Məni qəbul edirlər

Mən dəyərliyəm

Nə qədər çox müxtəlif olsaq, biznesimiz o qədər güclü olacaq



Gələcəyimizi **qurun**

- Gələcək imkan və çətinlikləri proqnozlaşdırın
- Hər zaman bir addım öndə olun
- Uzunmüddətli performans və qısamüddətli təhvil-təslim arasında tarazlıq qurun
- Hər şeyi yaxşılaşdırmağa çalışın
- Dəyişiklikləri qəbul edin və innovasiyanı xoş qarşılayın: yenilikləri sınamağa və uğursuzluqlarınızdan dərs çıxarmağa hazır olun

Təməl yanaşma

Mən uğurlu olacağımıza inanıram

Yenilikləri sınaqdan keçirmək vacibdir

Uğursuzluqlarımızdan dərs çıxarmaqla uğurlu olmağı öyrənirik

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

HÖRMƏTLİ HƏMKAR

Bizim kommersiya uğurumuzun əsasını biznesə məsuliyyətli yanaşma və diqqəti fərdi məsuliyyətə yönəltmə təşkil edir.



Davranış Kodeksimiz Imperial Brands şirkətində işlərin düzgün həyata keçirilməsi üzrə bələdçimizdir.

Kodeksimiz praktik şəkildə bütün maraqlı tərəflər üçün daha sağlam gələcəyə yol açmaq Məqsədimizə və məsuliyyətlə idarə olunan biznes qurmaq Vizyonumuza ən yaxşı şəkildə necə dəstək verə biləcəyimizi təsvir edir.

Hər birimiz bizə işləmə tərzimizə və davranışımıza görə məsuliyyət daşımaq inamı verən Kodekslə tanış olmağa vaxt ayırmalıyıq.

Kodeksi diqqətlə oxuyun. Onu həmkarlarınızla müzakirə edin. Başa düşmədiyiniz bir şey varsa, Komanda rəhbərinizə və ya rəhbərliyin hər hansı bir üzvünə müraciət edin.

İnanclarımızı və gözləntilərimizi aydın şəkildə ifadə etməklə, Kodeks vəzifə və ya məkandan asılı olmayaraq qlobal təşkilatımızda ardıcıl şəkildə düzgün qərarlar qəbul etməkdə bizə kömək edir.

Kodeksə uyğun olmayan hər hansı davranışı müşahidə edirsinizsə və ya şübhələnirsinizsə, lütfən fikrinizi bildirin. Məxfiliyiniz qorunacaq və biz cavab tədbirlərinə məsuliyyətlə yanaşacağıq.

Ən yüksək davranış standartları ilə fəaliyyət göstərmək həm düzgün qərardır, həm də uzun müddət ərzində davamlı inkişafı təmin edəcəyimiz üsuldur.

Stefan Bomhard
Baş icraçı direktor

DAVRANIŞ KODEKSİNƏ GİRİŞ

Davranış Kodeksimiz Imperial Brands şirkəti üçün və bu şirkətdə çalışan hər kəsdən gözlədiyimiz davranış standartlarını müəyyən edir.

Kodeks biznes məqsədlərimizə dürüst şəkildə nail olmağımızı təmin etmək üçün çərçivə təmin edir.

Bu Kodeks direktorlar, rəhbərlik, işçilər, müvəqqəti işçilər və bütövlükdə sahib olduğumuz subsidiar şirkətlərimiz də daxil olmaqla, Imperial Brands-da hər kəsə şamil edilir.

Siz Kodeksi oxuyub anlamaqdan və sizə təyin edilmiş bütün məcburi Kodeks və uyğunluq təlimlərini tamamlamaqdan məsulsunuz. Kodeksdə qeyd olunan gözləntilərlə bağlı hər hansı sualınız varsa, sualınızı Komanda rəhbəriniz, yerli Hüquq məsləhətçisi və ya Qrupun hüquqşünasına verin.

Sizdən Kodeks və Kodeks mövzuları üzrə keçirilən müntəzəm təlimin bir hissəsi kimi Kodeksi başa düşməyinizi təsdiqləməyiniz xahiş olunacaq.



DAVRANIŞ KODEKSİNƏ GİRİŞ

Komanda rəhbərlərinin məsuliyyətləri

Əgər Komanda rəhbərisinizsə, Kodekslə bağlı əlavə məsuliyyətləriniz var:

- **Kodeksi dəstəkləmək və tətbiq etmək üçün öhdəliklərinizi anlamaq**
- **Kodeksi paylaşmaq və izah etmək üçün imkanlar tapmaq**
- **Kodeksə əməl etməklə, komanda və digər həmkarlarınıza yaxşı nümunə göstərməklə hamıya nümunə olmaq**
- **Komandanızın Kodeks və uyğunluq mövzuları ilə bağlı bütün məcburi təlimləri tamamlamasını təmin etmək**
- **Komandanızı suallar verməyə, problemlərini bildirməyə və səhvlik hiss etdikləri zaman onunla bağlı danışmağa təşviq etmək və bunu etdikdə, onları diqqətlə dinləmək və lazımi şəkildə tədbir görmək.**

Həmkarlarınızın sizdən inamlı şəkildə kömək istəməsində və düzgün hesab etdikləri çətin qərarları qəbul etməsində özlərini təhlükəsiz hiss etmələrinə şərait yaratmaqla bağlı oynadığınız mühüm rolu dərk etmək. Əgər sizə istiqamət və ya məsləhət lazım olarsa, yerli Hüquq Məsləhətçinizdən və ya Qrupun hüquqşünasından kömək istəyin.

Kodeksə əməl olunmasının təmin olunması

Bizim biznesə məsuliyyətli yanaşmamız bizdən gözlənilən davranış standartlarına cavabdehliyimizi təmin etmək deməkdir. İntizam Siyasətimizə uyğun olaraq, Kodeksin pozulmasında günahkar olan şəxslər ədalətli intizam prosedurlarına məruz qalacaqlar. Qanun pozuntusu həm də hüquqi sanksiyalar və ya digər cəzalarla tənzimlənir.

Daxili resurslar üçün buraya klikləyin



ETİK QƏRARLAR QƏBUL ETMƏK

Hər birimiz işimizdə verdiyimiz qərarlara görə cavabdehik.
Bəzən qanuni, etik qərar aydın olur. Digər vaxtlarda düzgün qərarı müəyyən etmək daha çətindir. Həmişə qürur duya biləcəyimiz qərarlar qəbul etməyimiz vacibdir.

Çətin qərar və ya qeyri-adi tələblə qarşılaşdığınız zaman özünüzə bu sualları verin:

Görünür, köməyə ehtiyacınız ola bilər:

Komanda rəhbərinizdən, **yerli Hüquq Məsləhətçisindən** və ya **Qrupun hüquqşünasından kömək istəyin**

Əmin deyiləm...



- Bu, qanunidirmi?
  - BƏLİ
- Bu, Kodeksimizə, şirkət siyasətimizə və davranışlarımıza uyğundurmu?
  - BƏLİ
- Mən risk və nəticələri başa düşürəmmi?
  - BƏLİ
- Hərəkətlərimi həmkarımın qarşısında əsaslandıra bilərəmmi?
  - BƏLİ
- Mənim gördüyüm işləri xəbərlərdə oxusalar, başqaları nə düşünər?
  - BƏLİ
- **Bu sualların hamısının cavabı Bəlidirsə, yəqin ki, davam etmək olar.**
- **Hələ də narahatlığınız varsa, Komanda rəhbəriniz və ya yerli Hüquq Məsləhətçinizlə əlaqə saxlayın.**

Xeyr...

Davam etməyin:

Bu sualların hər hansı birinə Xeyr cavabı vermək, bunun qəbuledilməz qərar və ya sorğulama ehtimalının yüksək olması deməkdir.
Komanda rəhbərinizdən, **yerli Hüquq Məsləhətçisindən** və ya **Qrupun hüquqşünasından kömək istəyin**

"DANIŞ" KANALI

Imperial Brands şirkətində qanunsuz davranışla bağlı narahatlığınız varsa, dan;.maqda cəsarətli olun. Əgər siz Kodeksdə nəzərdə tutulan gözləntiləri pozan davranış müşahidə etdinizsə və ya sizdən Kodeksə, şirkət siyasətinə və ya qanuna uyğun gəlməyən bir şey etmək tələb olunubsa, biz sizi fikrinizi bildirməyə dəvət edirik.

SPEAKING UP

BIZ BİRLİKDƏ FƏRQLİLİK YARADIRIQ

Qanunsuz davranışı bildirməyin bir neçə üsulu var:

- Komanda rəhbəriniz və ya yerli İşçi heyət və Mədəniyyət (P&C) üzrə biznes tərəfdaşınızla danışın. İstəyirsinizsə, siz birbaşa Qrupun hüquqşünası ilə də əlaqə saxlaya bilərsiniz.
- Təhlükəsiz onlayn "Danış" adlı platformamız vasitəsilə narahatlığınızı məxfi şəkildə bildirin. Bu səhifədəki QR kodu skan etməklə və ya **https://imperialbrands.whistleblowernetwork.net**. vebsaytına daxil olmaqla kompüterinizdən və ya mobil cihazınızdan sistemə daxil ola bilərsiniz. Tərcih etdiyiniz halda hesabatınız anonim şəkildə təqdim edilə bilər.

  Bəzi ölkələrdə narahatlığınızı bildirmək üçün lokal pulsuz telefon nömrəsinə də zəng edə bilərsiniz. Telefon nömrələrinin siyahısına **burada** daxil olun. Tələb olunarsa **25492** kodunu daxil edin.
- Narahatlığınızı yazılı şəkildə bildirin:
  Imperial Brands Plc, Kimə: "Danış" kanalı,
  121 Winterstoke Road, Bristol BS3 2LL UK |
  speakup@impbrands.com

  Şimali Amerikada yaşayırsınızsa, fikrinizi ITG Brands şirkətinə bildirin:
  ITG Brands "Danış" kanalı,
  714 Green Valley Road, Greensboro, NC 27408 |
  Tel: +1 866 447 6092
  https://secure.ethicspoint.com

Siz fikrinizi bildirməyi seçsəniz, şikayətiniz nəzərdən keçiriləcək və lazım gələrsə, araşdırılacaq.



Daxili resurslar üçün buraya klikləyin

"DANIŞ" KANALI



SPEAKING UP

BIZ BİRLİKDƏ FƏRQLİLİK YARADIRIQ

Biz öz fikrini bildirən hər kəsin məxfiliyini qoruyacağıq və narahatlığını bildirən və ya araşdırmada iştirak edən şəxsə qarşı hər hansı cavab davranışı və ya ayrı-seçkiliyə yol verməyəcəyik. Cavab davranışı işdən çıxarılma da daxil olmaqla intizam tədbirləri ilə nəticələnə bilər.

"Danış" kanalımız Imperial şirkətinin əməkdaşları və müvəqqəti işçilər, eləcə də təchizatçılar və xarici biznes tərəfdaşları və işlədiyimiz icmalar üçün əlçatandır. Sizə Imperial Brands şirkəti ilə və ya onun adından fəaliyyət göstərən hər kəsə "Danış" kanalımızı tanıtmaq tövsiyə olunur.

Şikayət etmək

İşinizin irəliləməsi, məşğulluq şərtləri və ya həmkarlarınızla fikir ayrılıqları kimi işçi şikayətləri Kodeks müddəalarının pozulması halı ilə müqayisədə fərqli şəkildə həll olunur.

Şikayətləri həll etmək üçün ilk növbədə fikrinizi Komanda rəhbərinizə bildirərək problemləri qeyri-rəsmi şəkildə həll etməyə çalışmalısınız. Əgər bunu edə bilməyəcəyinizi hiss edirsinizsə, baş menecer və ya yerli P&C biznes tərəfdaşınızla danışın.

Şikayətinizi qeyri-rəsmi şəkildə həll etmək mümkün olmadıqda, yerli şikayət prosedurunuza uyğun olaraq rəsmi olaraq iddia qaldıra bilərsiniz. Ətraflı məlumat üçün P&C biznes tərəfdaşınızla danışın.

Imperial Brands şirkəti şikayəti bildirən şəxsə qarşı heç bir cavab tədbiri və ya ayrı-seçkiliyə yol verməyəcək.

Həmçinin baxın:
"Danış" Kanalı ilə bağlı Siyasət

Daxili resurslar üçün buraya klikləyin

MÜŞTƏRİLƏRİMİZ

Məqsədimiz məlumat və bilikləri dərin təcrübəmizlə birləşdirərək, yetkin istehlakçıları anlamaqdır.

Siqaret çəkməyin sağlamlığa ziyanı ilə bağlı cəmiyyətin narahatlığını başa düşürük və habelə veyplər, qızdırılan tütün və oral nikotin yastıqçalar kimi riskləri azalda biləcək məhsulların məsuliyyətli şəkildə işlənib hazırlanması və marketinqi də daxil olmaqla zərərin azaldılmasına kömək etməkdə rolumuzu tanıyırıq.

12 Marketinqin məsuliyyətli şəkildə idarəolunması

13 Keyfiyyəti təmin edən dəyər

14 Elmdə dürüstlük






“Məqsədimiz məhsullarımızdan istifadə etmək üçün şüurlu seçim etmiş böyüklərin ehtiyaclarını ödəməkdir”

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

MARKETİNQİN MƏSULİYYƏTLİ ŞƏKİLDƏ İDARƏOLUNMASI

Biz fəaliyyət göstərdiyimiz ölkələrdə məhsullarımızın marketinqini və reklamını oranın qanunlarına, praktika qaydalarına və könüllü razılaşmalarına uyğun şəkildə məsuliyyətlə həyata keçirməkdən məsuluq. Biz Marketinq Prinsiplərimizi bütün reklam və təşviqat fəaliyyətlərinə tətbiq edirik və xarici biznes tərəfdaşlarımızdan da bunu tələb edirik.



- **Məhsullarımızı yalnız siqaret çəkən yetkin şəxslərə və ya nikotin məhsullarının həvəskar yetkin istehlakçılarına reklam edir və bazara çıxarırıq**
- **Məhsullarımız və onların riskləri haqqında aydın və dəqiq məlumat veririk**
- **Bütün məhsul iddialarımızın həqiqi və əsaslı olmasını təmin edirik**
- **Gəncləri cəlb etməyə yönəlmiş şəkillər və ya məzmundan istifadə etmirik**




Daxili resurslar üçün buraya klikləyin

Marketinq Prinsipləri

1. Biz yalnız tütün və nikotin məhsullarının **yetkin istehsalçıları** ilə işləyirik
2. Marketinqimiz **dürüst və şəffafdır**
3. Biz istehsalçılara **şüurlu seçim etmələri** üçün lazım olan məlumatları veririk
4. Biz **insanları heç vaxt siqaret çəkməyə** və ya siqaret çəkməyənləri həvəskar kimi nikotin məhsullarından istifadə etməyə təşviq etməyəcəyik və ya məhsullarımızı istifadə edənləri siqaretdən imtina etməyə təhrik etməyəcəyik
5. Biz məhsullarımızın reklamını, təşviqini və satışını tənzimləyən **yerli qanunlara, təcrübə kodeksinə və könüllü razılaşmalara** əməl edirik.

KEYFİYYƏTİ TƏMİN EDƏN DƏYƏR

Biz keyfiyyət mədəniyyətini inkişaf etdirmək öhdəliyimizə sadiqiq, daim normativ tələblərə və müştəri gözləntilərinə uyğun olaraq biznes standartlarımızı, proseslərimizi və məhsullarımızı təkmilləşdirməyə çalışırıq. Keyfiyyətin idarə edilməsinə sistemli yanaşmamız üç əsas prinsipə əsaslanır: **Düzgün ol**, **Düzgünlüyünü qoruyub saxla** və **Səhvlə mübarizə apar**.



- **İşinizdə tətbiq olunan hər hansı qlobal və ya yerli şirkət prosedurlarından xəbərdar olun**
- **Qərarlar qəbul etmək üçün məlumatlar, analitik materiallar və təcrübənizdən istifadə edərək müştəri rəyini dinləyin və ona uyğun hərəkət edin**
- **Müştərilərin təhlükəsizliyi və ya keyfiyyətlə bağlı heç bir problemi nəzərdən qaçırmayın və proseslərimizi, xidmətlərimizi və məhsullarımızın keyfiyyətini daim təkmilləşdirməyə çalışın.**
- **Həmişə işə müştərini nəzərə almaqla başlayaraq gördüyünüz işdə keyfiyyəti təmin edin**






“Uğurumuz və nüfuzumuz yetkin müştərilərə istirahət və həzz anları bəxş edən düzgün keyfiyyətli məhsulları təqdim etmək bacarığımızdan asılıdır”

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ELMDƏ DÜRÜSTLÜK

Biz ictimai sağlamlığa mənalı töhfə vermək üçün Yeni Nəsil Məhsullarının potensialını qiymətləndirmək də daxil olmaqla, bütün məhsul çeşidimizdə məhsula nəzarət və sağlamlığın qorunması bağlı öhdəliklərimizə əməl etməyə çalışırıq. Biz bunu məhsullarımızın istismar dövrləri boyunca geniş məhsul təhlükəsizliyi qiymətləndirmələrini apararaq və Yeni Nəsil Məhsullarında tütünün zərərinin azaldılması potensialını qiymətləndirərək edirik.



- **Məhsulun təhlükəsizliyinin qiymətləndirilməsi və Yeni Nəsil Məhsullarında tütünün zərərinin azaldılması potensialının qiymətləndirilməsi üçün çoxmərhələli və çoxprofilli elmi qiymətləndirmə çərçivəmizə əməl edirik**
- **Burada vebsaytımızın Tədqiqat Arxivi bölməsində tapa biləcəyiniz yeniliklərimiz, tədqiqat nəticələrimiz və metodologiyalarımızla bağlı şəffaflığı qoruyuruq**
- **Biz yalnız dəyişməz şəkildə yüksək etik təcrübə və elmi davranış standartlarına sadiq olan xüsusi seçilmiş tədqiqat və innovasiya tərəfdaşları ilə işləyirik**
- **Biz yalnız yetkin siqaret çəkənlər və həvəskar məqsədlərlə nikotin məhsullarının yetkin istifadəçiləri üçün məhsullar işləyib hazırlayırıq**





Daxili resurslar üçün buraya klikləyin



Biz müəyyən edilmiş elmi standartlar, qaydalar və çərçivələr və ən yaxşı sənaye təcrübələrinə uyğun olaraq fəaliyyət göstəririk

BİZİM ƏMƏKDAŞLARIMIZ

Hər bir Imperial Brands şirkətinin əməkdaşının bacarıqlarını və potensialını inkişaf etdirmək ambisiyalarımız üçün çox vacibdir.

Biz insanları olduqları kimi dəyərləndiririk və mədəniyyətindən, inanclarından və ya həyat tərzindən asılı olmayaraq hər bir insanın gətirdiyi dəyərə hörmətlə yanaşırıq.


16 Hörmət, ədalətli rəftar, müxtəliflik, bərabərlik və inklüzivliyin təşviqi

17 İstedadın inkişafı

18 Təhlükəsiz, sağlam və əlverişli iş yerinin təmin edilməsi

19 İnsan hüquqlarına hörmət etmək






“Imperial şirkətində bizim əsas davranış prinsiplərimiz nəticə yönülmüdür və inklüziv mədəniyyətin əsasını təşkil edir”

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

HÖRMƏT, ƏDALƏTLİ RƏFTAR, MÜXTƏLİFLİK, BƏRABƏRLİK VƏ İNKLÜZİVLİYİN TƏŞVİQİ

Məqəsdimiz işçilərimiz üçün mənsub olduqlarını hiss etməyə və özləri olmağa imkan verən fərqliliklərə yol açan həqiqətən müxtəlif və əhatəli bir təşkilat yaratmağa çalışır. Biz müştərilərimizin müxtəlifliyinə hörmət edir, tanıyır və qiymətləndiririk və işlədiyimiz icmaların maraqlarını əks etdiririk.

İş yerimizdə işçilərə ləyaqət, bərabərlik və hörmətlə yanaşılır. Biz işçilərin şikayətlərinə ardıcıl, ədalətli və vaxtında cavab verməyə çalışırıq. Biz zorakılığa, məcburiyyətə, hədə-qorxu gəlməyə, bullinqə, təqibə, cinsi qısnamaya, ayrı-seçkiliyə və ya şəxsi keyfiyyətlərə əsaslanan hər hansı digər alçaldıcı davranışa və ya təcridedici davranışa yol vermirik.



- **Öz şüuraltı meylinizin fərqində olun. Bunlar hamımızın dünya qavrayışımıza təsir edən gizli şüuraltı inanclardır**
- **Şəfqət nümayiş etdirin və müxtəlif nöqteyi-nəzərləri və düşüncə tərzlərini axtarmağa və nəzərdən keçirməyə vaxt ayırın**
- **Nəzərə alın ki, hər bir işçinin öz fərdi keçmişi və təcrübəsi var – mənsub olduqları demoqrafik qruplara əsaslanaraq fərziyyələr irəli sürməkdənsə, onların tərcihləri barədə soruşun.**
- **Bütün proseslər, siyasətlər, təcrübələr, çıxışlar və ünsiyyət materialları, təcrübəsindən və ya fərdi keyfiyyətlərindən asılı olmayaraq bütün işçilər üçün eyni dərəcədə əlçatan və uyğun şəkildə işləyib hazırlamağa və həyata keçirməyə çalışın.**

Daxili resurslar üçün buraya klikləyin "Danış" Kanalı ilə bağlı Siyasət




İş yerimizdə işçilərə ləyaqət, ədalət və hörmətlə yanaşılır.

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

İSTEDADIN İNKİŞAFI

Biz həmkarlarımızın davamlı olaraq bilik və bacarıqlarını inkişaf etdirmələri və karyera potensiallarını reallaşdırmaqda onlara dəstək olmağa imkan verən kollektiv və faydalı iş mühiti yaratmağa çalışırıq. Biz işçilərə yardım proqramlarından, dəyişkən iş qrafikindən, ailələrin maraqlarına uyğun siyasətlərdən və imkanlardan, eləcə də tələb olunduqda əməyin mühafizəsi xidmətlərindən istifadə imkanını təmin edirik.



- **Fərdi inkişafınıza vaxt ayırdığınızdan əmin olun. Bilik və təcrübəni başqaları ilə paylaşın və əvəzində onlardan öyrənin**
- **Nüfuz və ya davamlı artım bahasına diqqətinizi qısamüddətli kommersiya göstəricilərinə yönəltməyin**
- **Sizi idarə edən düşüncə tərzinin həmkarlarınızla əlaqə qurmağınıza və əməkdaşlıq etməyinizə təsir etməsinə icazə verməyin**
- **Səhvləri və ya çatışmazlıqları gizlətməyin və ya nəsə qaydasında olmaqdıqda məsuliyyətdən yayınmayın**





“Hər bir həmkarımızın iş göstəriciləri və potensialından istifadə etmək strateji məqsədlərimizə çatmaqda bizə kömək olacaq”




Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

TƏHLÜKƏSİZ, SAĞLAM VƏ ƏLVERİŞLİ İŞ YERİNİN TƏMİN EDİLMƏSİ

İşçilərimizin sağlamlığı, təhlükəsizliyi və rifahı bizim üçün hər şeydən önəmlidir. Biz rifah və təhlükəsizliyin mütləq prioritetlər olduğu qayğı mədəniyyəti yaratmağa və bütün qlobal əməliyyatlarımızda dünya səviyyəli peşə sağlamlığı, təhlükəsizlik və rifah standartlarına nail olmağa çalışırıq.



- **Potensial təhlükəsizlik təhdidlərini aradan qaldırmaq və ya effektiv şəkildə idarə etmək üçün təhlükələri müəyyənləşdirin və riskləri qiymətləndirin**
- **Avadanlıqlardan, nəqliyyat vasitələrindən, mexanizmlərdən və fərdi mühafizə vasitələrindən istifadə qaydalarına əməl edin**
- **İşinizin və ya iş mühitinizin sağlamlığınıza təhlükə yaratdığına inanırsınızsa və ya əlavə dəstəyə ehtiyacınız varsa (məsələn, fiziki məhdudiyyət və ya işə qayıdış üçün tənzimləmələr) sağlam həyat tərzini mənimsəyərək və Komanda rəhbərinizi məlumatlandıraraq öz sağlamlığınızın və rifahınızın idarə olunması məsuliyyətini üzərinizə götürün.**
- **Sağlamlıq, təhlükəsizlik və rifahla bağlı təcrübələrimizi davamlı olaraq təkmilləşdirməyə çalışın və həmkarlarınızı da eyni şeyi etməyə təşviq edin**

Daxili resurslar üçün buraya klikləyin İnsan Hüquqları Siyasəti



İşçilərimizin sağlamlığı, təhlükəsizliyi və rifahı bizim üçün hər şeydən önəmlidir


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

İNSAN HÜQUQLARINA HÖRMƏT ETMƏK




Biz əməkdaşlarımızın, xarici biznes ortaqlarımızın və iş apardığımız icmaların təhlükəsizliyini, ləyaqətini və rifahını dəyərləndiririk.

Biz birləşmək azadlığı və kollektiv danışıqların tanınması; məcburi və ya icbari əməyin və uşaq əməyinin aradan qaldırılması; məşğulluq və peşə ilə bağlı ayrı-seçkiliyin aradan qaldırılması; həmçinin öz əməliyyatlarımız, təchizatçılarımız və xarici biznes tərəfdaşlarımızın əməliyyatları çərçivəsində təhlükəsiz və sağlam iş mühiti hüququ da daxil olmaqla, insan hüquqlarına hörmət edirik. Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərini və BƏT-in Əmək sahəsində Əsas Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsini rəhbər tuturuq.



- **Yerli qanunvericiliklə müəyyən edilmiş minimum əmək yaşından kiçik olan heç bir şəxs işə götürülməməlidir**
- **Uşaq əməyi, məcburi və ya insan alveri və köləliyin hər hansı müasir forması qadağandır. İnsan hüquqlarının pozulmasından şübhələnirsinizsə və ya müşahidə edirsinizsə, fikrinizi bildirin**
- **Təchizat zəncirimizdə uşaq əməyindən istifadəni sıfıra endirməyə çalışırıq. Biz təchizatçılarımızdan beynəlxalq əmək standartlarına riayət etmələrini və ya hətta bunu yüksək səviyyədə etməyi tələb edirik və bunu Təchizatçının Davranış Kodeksində bildiririk**
- **Biz İnsan Hüquqları Siyasətimizi anlayır və ona əməl edirik**



“Biz əməkdaşlarımızın, xarici biznes ortaqlarımızın və iş apardığımız icmaların təhlükəsizliyini, ləyaqətini və rifahını qiymətləndiririk”

Daxili resurslar üçün buraya klikləyin İnsan Hüquqları Siyasəti
Müasir Köləliyə dair Bəyannamə Təchizatçının Davranış Kodeksi

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN


ŞİRKƏTİMİZİN AKTİVLƏRİ VƏ NÜFUZU

Biznesimizi diqqətli və səylə idarə etmək bizə Imperial Brands şirkətinin aktivlərini və nüfuzunu qorumağa imkan verir və şirkətimiz üçün daha davamlı gələcək təmin edir.



21 Qanunsuz ticarətlə mübarizə
22 Şirkətin aktivlərinin qorunması
23 İnformasiya sistemlərinin mühafizəsi
24 Şəxsi məlumatların mühafizəsi
25 Məxfi məlumatların idarə olunması
26 Əqli mülkiyyətin mühafizəsi
27 İnvestorlar, analitiklər və mətbuatla əlaqə qurma
28 Sosial şəbəkələrdən məsuliyyətli istifadə






> **Biznesimizi diqqətli və səylə idarə etmək bizə Imperial Brands şirkətinin aktivlərini və nüfuzunu qorumağa imkan verir.**


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

QANUNSUZ TİCARƏTLƏ MÜBARİZƏ

Biz qanunsuz ticarətin istənilən formasına qarşı mübarizə aparırıq və qeyri-qanuni tütün məlumatlarının qanuni bazarlara yol tapmasının qarşısını almaq üçün dövlət orqanları ilə əməkdaşlıq edirik. Qeyri-qanuni ticarətin mütəşəkkil cinayəti və terrorizmi maliyyələşdirdiyinə dair açıq sübutlar vardır, bunun da aradan qaldırılması bizim əsas prioritetlərimizdən biri olaraq qalır.



- **Məhsulu yalnız təyinat bazarında daxili istehlaka və səyahət edən istehlakçının icazə verilən tələblərinə uyğun miqdarda təqdim edirik.**
- **Müştəriləri Imperial Brands şirkətinin qanunsuz ticarətə qarşı mövqeyi, qanun və standartlarımıza əməl etmək məsuliyyəti barədə məlumatlandırırıq**
- **Məhsul itkisinin araşdırılması ilə bağlı istənilən hökumət və ya hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edirik**
- **Şübhəli qanunsuz ticarətlə bağlı məlumat topladıqda və ya bununla bağlı şikayət etdikdə özümüzü risk altına və ya təhlükəyə atmırıq**






> **Biz qeyri-qanuni ticarətin istənilən formasına qarşıyıq və qeyri-qanuni tütün məlumatlarının bazarlara çıxışının qarşısını almaq üçün qlobal olaraq dövlət orqanları ilə əməkdaşlıq edirik**

Daxili resurslar üçün buraya klikləyin


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ŞİRKƏTİM AKTİVLƏRİNİN QORUNMASI

Şirkət aktivləri və resurslarının qeyri-düzgün istifadəsinin biznesimizin gəlirliliyinə birbaşa təsiri vardır. Noutbukların və telefonların, avadanlıqların (nəqliyyat vasitələri kimi), qurğuların, informasiyanın, əqli mülkiyyətin və şirkət pullarının düzgün istifadəsi məcburidir və bütün Imperial Brands həmkarlarına aiddir.



- **Imperial Brands şirkətinin əmlakından və pulundan şirkətin ən yaxşı maraqları üçün istifadə edirik.**
- **E-poçt və ya telefon kimi şirkətin informasiyat sistemlərindən istifadə ilə bağlı şirkət siyasətlərinə əməl edirik**
- **Müştərilər və xarici biznes tərəfdaşları kimi şirkətə və digər qurumlara məxsus əmlaka və resurslara hörmət edirik**
- **Şirkət resurslarını şəxsi mənfəət üçün istifadə etmirik**






> **Şirkət resurslarının qeyri-düzgün istifadəsinin biznesimizin gəlirliliyinə birbaşa təsiri vardır**

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

İNFORMASİYA SİSTEMLƏRİNİN MÜHAFİZƏSİ

Biz şirkət məlumatlarını, iş proseslərini və sistemlərini sui-istifadədən, oğurluqdan, zədələnmədən və ya icazəsiz girişdən, dəyişiklikdən və cəmiyyətə açıqlanmasından qoruyuruq. Biz hər zaman kiber təhdidlərə qarşı ayıq-sayıq qalırıq.



- **Bütün şübhəli təhlükəsizlik insidentləri və ya məlumatlarla bağlı qanun pozuntuları barədə dərhal dəstək xidmətinə məlumat verin**
- **Outlook-da "Fişinqlə bağlı şikayət et" düyməsini istifadə edərək bütün şübhəli fişinq e-poçtları ilə bağlı məlumat verin**
- **Ən azı 16 simvoldan ibarət uzun parollardan istifadə edin və mümkün olduqda çoxfaktorlu autentifikasiyadan (MFA) istifadə edin**
- **Ofisdən uzaqda işləyərkən xüsusilə diqqətli olun**






Daxili resurslar üçün buraya klikləyin

> **Biz hər zaman kiber təhdidlərə qarşı ayıq-sayıq qalırıq**


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ŞƏXSİ MƏLUMATLARIN QORUNMASI

Biz həmkarlarımızın, podratçılarımızın, istehlakçılarımızın, müştərilərimizin və xarici biznes tərəfdaşlarımızın məxfiliyinə hörmətlə yanaşırıq. Biz şəxsi məlumatların mövcud məlumat məxfiliyi qanunlarına və qaydalarına uyğun olaraq işlənməsindən məsuluq.



- **Yalnız qanuni məqsədlər üçün lazım olan şəxsi məlumatları toplayır və ya istifadə edirik**
- **Şəxsi məlumatları xüsusən də onların toplanıldığı ölkədən kənara paylaşdıqda yalnız icazə əsasında və müvafiq nəzarət vasitələri ilə paylaşırıq.**
- **İşlədiyimiz hər hansı şəxsi məlumatları qoruyur və yalnız toplandığı məqsədlər üçün və ya minimum qanuni tələblərə cavab vermək üçün lazım olan müddət ərzində saxlayırıq**
- **Fərdlərə şəxsi məlumatlara nə üçün ehtiyacımız olduğunu, onlardan necə istifadə ediləcəyini və hüquqlarının nə olduğunu izah edirik**






> **Biz həmkarlarımızın, podratçılarımızın, istehlakçılarımızın, müştərilərimizin və xarici biznes tərəfdaşlarımızın məxfiliyinə hörmətlə yanaşırıq**

Daxili resurslar üçün buraya klikləyin Imperial Brands şirkətinin Məxfilik Bildirişi

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

MƏXFİ MƏLUMATLARIN İDARƏ OLUNMASI

Biz istehlakçı, müştəri, şirkət və işçinin məlumatlarını qoruyuruq. Biz məxfi məlumatlarla işləyərkən daha diqqətli olur və onu yalnız görməyə ehtiyacı olanlarla paylaşırıq. Rəqiblərimiz də daxil olmaqla, başqalarının məxfi məlumatlarına hörmətlə yanaşırıq.



- **Məxfi məlumatları yalnız bilməli və ya bilmək hüququ olan şəxslərlə paylaşırıq, onların tətbiq olunan hər hansı məhdudiyyətləri başa düşdüklərindən əmin oluruq.**
- **Imperial Brands xaricində məlumat paylaşarkən xüsusi icazə, məxfilik, məlumatların açıqlanmaması və ya onların işlənməsi müqavilələri daxil olmaqla, lazımi icazələri əldə edirik**
- **Məxfi məlumatları qorumaq üçün müvafiq məxfilik etiketindən və şifrələmədən istifadə edirik. Məxfi ekran qoruyucusundan istifadə edir və ictimai yerlərdə çalışarkən məxfi məsələləri müzakirə edərkən diqqətli davranırıq.**
- **Korporativ məqsədlər üçün şəxsi və ya şirkətə aid olmayan ani mesajlaşma xidmətlərindən, e-poçt xidmətlərindən, fayl paylaşımı və saxlama xidmətlərindən istifadə etmirik.**




> **Rəqiblərimiz də daxil olmaqla, başqalarının məxfi məlumatlarına hörmətlə yanaşırıq**




Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN




ƏQLİ MÜLKİYYƏTİN MÜHAFİZƏSİ

Ticarət nişanları, dizayn hüquqları, patentlər və müəllif hüquqları kimi əqli mülkiyyət hüquqlarımız brendlərimizi və innovasiyalarımızı qoruyan və bizə rəqabət üstünlüyü verən qiymətli aktivlərdir. Əgər əqli mülkiyyət resurslarımız yanlış məqsədlər üçün istifadə olunarsa, bizim və müştərilərimizin maraqları zərər görəcəkdir.



- **Intellektual mülkiyyətimizi qoruyuruq və istənilən "imitasiya" məhsulları, saxta məhsullar və ya Imperial Brands şirkətinin əqli mülkiyyət hüquqlarını pozan digər məhsullar haqqında xəbər veririk**
- **Tərəfdaşlarımızla əlaqə qurarkən, əqli mülkiyyəti nəzərə aldığınızdan və məlumatların açıqlanmaması ilə bağlı müqavilələri və ya işləyib hazırlamaqla bağlı müqavilələr kimi müvafiq müqavilələrin mövcud olduğundan əmin oluruq.**
- **Müştərilər, rəqiblər və xarici biznes tərəfdaşları da daxil olmaqla başqalarının əqli mülkiyyətinə hörmət edirik**
- **Məhsullarımızı satarkən, marketinqini təşkil edərkən və ya reklam edərkən müştərilərimizin digər məhsullar ilə əlaqələndirə biləcəyi adlardan, ticarət markalarından və ya digər dizayn elementlərindən istifadə etmirik.**



Daxili resurslar üçün buraya klikləyin


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN




Biz əqli mülkiyyət hüquqlarımızı qoruduğumuzu və başqalarının əqli mülkiyyət hüquqlarına hörmətlə yanaşılmasını təmin etmək üçün qarşılıqlı şəkildə əməkdaşlıq edirik

İNVESTORLAR, ANALİTİKLƏR VƏ MƏTBUATLA ƏLAQƏ QURMA

Biz investorlar, analitiklər və mətbuat ilə bütün əlaqələrimizdə aydın və ardıcıl fikirlər təqdim edirik. Dediyimiz və ya etdiyimiz hər bir şey və xarici maraqlı şəxslərin haqqımızda söylədikləri bizim nüfuzumuza təsir edir. Maraqlı şəxslər, analitiklər, müştərilər və digər şəxslər fəaliyyətlərimiz, performansımız və maliyyə perspektivlərimiz haqqında dəqiq və etibarlı məlumatların təminatı üzrə bizdən asılıdırlar.



- **İnvestorlar, analitiklər və mətbuatla yalnız təlim görmüş və icazəli əməkdaşlarımızın əlaqə saxladığını təmin edirik**
- **İstənilən mətbuat sorğusunu yerli kommunikasiya qrupuna və ya Qrup Kommunikasiyası şöbəsinə yönləndiririk**
- **İstənilən investor və ya analitik sorğusunu baş ofisdəki İnvestorlarla Əlaqələr komandasına yönləndiririk**
- **Təlim keçmiş və icazəli işçi olmadan şirkəti kənar şəxslərə təqdim etmirik**






> **Biz investorlar, analitiklər və mətbuatla bütün əlaqələrimizdə aydın və ardıcıl fikirlər təqdim edirik**

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN


SOSİAL ŞƏBƏKƏLƏRDƏN MƏSULİYYƏTLİ İSTİFADƏ

Şirkətimiz haqqında məlumat paylaşmaqda bizə kömək etmək üçün sosial şəbəkələrdən məsuliyyətli və şəffaf şəkildə istifadə etməyə çalışırıq. Sosial şəbəkələrdən istifadəmizlə bağlı şirkətin verdiyi tövsiyələri başa düşmək və onlara əməl etmək hər bir Imperial Brands həmkarının məsuliyyətidir.



- **Şirkətimizi və ya fəaliyyətimizi təsdiqləyirsinizsə, özünüzü işçi kimi təqdim edin**
- **Sosial şəbəkələrdə biznesimiz haqqında məlumatın verilməsinə tətbiq oluna biləcək qanuni məhdudiyyətlərdən xəbərdar olun**
- **Sosial şəbəkə paylaşımlarınızın başqaları tərəfindən necə qəbul oluna biləcəyinə diqqət edin**
- **Sosial şəbəkələrdə şirkət və ya onun müştəriləri, təchizatçıları və ya həmkarları haqqında məxfi, şəxsi və ya daxili məlumatları açıqlamayın.**





> **Sosial şəbəkələrdən istifadəmizlə bağlı şirkətin verdiyi tövsiyələrə əməl etmək hər bir Imperial Brands həmkarının məsuliyyətidir**

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

İŞGÜZAR FƏALİYYƏTDƏ DÜRÜSTLÜYÜMÜZ

Məsuliyyətli və dürüst davranmağı Imperial Brands şirkətinə uğurlu biznes qurmağa və onu davam etdirməyə imkan verdi. Biz inama, ədalətliliyə və səmimiliyə inanırıq və gördüyümüz hər iş bunu əks etdirir. Biz rüşvətxorluğun, korrupsiyanın və ya saxta mühasibatlığın istənilən forması ilə mübarizə aparırıq.

30 Rüşvət və korrupsiyaya ilə mübarizə

31 Hədiyyə və Qonaqlıqlar vermə və qəbul etmə

32 Maraqların toqquşmasının idarə olunması

33 Ədalətli rəqabət

34 Rəqiblərin fəaliyyətləri ilə bağlı məlumatların toplanması

35 İnsayder ticarətinin qadağan olunması

36 Dəqiq maliyyə və qeyri-maliyyə hesabatları

37 Gömrük və vergi tələblərinə əməl etmə

38 Sanksiyalara və ticarət məhdudiyyətlərinə əməl etmə

39 Çirkli pulların yuyulması

40 Təchizatçılarla etibarlı əlaqələr

41 Dövlət və siyasi qurumlarla qarşılıqlı əlaqə




> **Biz məsuliyyəti inamla üzərimizə götürür və kommersiya mənfəəti üçün dürüstlüyü güzəştə getmirik**

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

RÜŞVƏT VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ

Biz biznesimizi düzgün şəkildə yerinə yetirməkdən qürur hissi duyuruq. Rüşvətxorluq və korrupsiya qanunlarına riayət etmək biznesi harada görməkdən asılı olmayaraq məcburidir və bu qanunların bəziləri sərhədlərdən kənarda da tətbiq oluna bilər. Rüşvətxorluq və korrupsiya qanunlarını pozmaq şirkət və hər bir əlaqədar şəxs üçün ciddi cinayət halı hesab olunur və böyük cərimələr və hətta həbs cəzası ilə də nəticələnə bilər.



- **Yerli qanunvericilik və ya mədəniyyətdən asılı olmayaraq rüşvət təklif etmirik, ödəmirik, və ya qəbul etmirik**
- **Heç vaxt başqasının bizim adımızdan korrupsiya tipli ödənişi etməsini istəmirik və ya buna şərait yaratmırıq**
- **Biznes işini təmin etmək, qoruyub saxlamaq və ya inkişaf etdirmək məqsədilə kiməsə dəyərli bir şey təklif etmirik və ya vermirik (məsələn, vergi və ya gömrük rüsumlarını azaltmaq məqsədilə ödənişlər)**
- **Yalnız kompleks yoxlamalardan keçmiş, rəsmi təsdiq edilmiş və müqavilə əsasında standartlarımıza cavab verməyə borclu olan məsləhətçilər və müşavirlərlə işləyirik**






> **Biz biznesimizi düzgün şəkildə yerinə yetirməkdən qürur hissi duyuruq**

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

HƏDİYYƏ VƏ QONAQLIQLAR VERMƏ VƏ QƏBUL ETMƏ

Məqsədimiz xarici biznes tərəfdaşları ilə güclü və etibarlı əlaqələr qurmaq, nəzakət nümayiş etdirmək və xoş niyyət yaratmaq üçün hədiyyələr və əyləncə mübadiləsi aparmaqdır. Lakin hədiyyələrin, qonaqpərvərliyin və əyləncənin qeyri-qanuni mübadiləsi rüşvət hesab oluna və bizim dürüstlüyümüzə xələl gətirə bilər.



- **Yalnız münasib və uyğun və əsaslandırılmış biznes məqsədli hədiyyələr və qonaqlıqlar verir və qəbul edirik**
- **Biznes qərarlarına qeyri-qanuni təsir göstərmək və ya üstünlük əldə etmək üçün nəzərdə tutulan və ya hesab edilə bilən hədiyyələr və ya qonaqlıqları təklif və ya qəbul etmirik**
- **Qanuni olmadığı və əvvəlcədən təsdiq edilmədiyi təqdirdə, dövlət və ya hökumət rəsmilərinə hədiyyələr və ya qonaqlıq təklif etmirik**
- **Hədiyyə olaraq nağd pul və ya nağd pul ekvivalenti təklif və ya qəbul etmirik**

Həmişə qəbuledilməzdir:

- Nağd pul və ya pul ekvivalenti
- Şirkət siyasətinə zidd olan və ya şirkətimizin nüfuzuna xələl gətirə biləcək hər hansı qanunsuz şey
- Heç bir əsaslandırılmış iş məqsədi olmayan hədiyyələr

Adətən qəbuledilən:

- Xarici biznes tərəfdaşları, müştərilər və ya təchizatçılarla yeməklər
- İdmana, teatra və ya mədəni tədbirlərə dəvətlər, bir şərtlə ki əsaslandırılmış biznes məqsədi olsun
- Nominal dəyəri olan reklam məhsulları

Unutmayın ki, dəyəri **100 GBP** və ya yerli bazar limitindən yuxarı olan bütün hədiyyələr və əyləncələr qeydiyyatdan keçməlidir.





Daxili resurslar üçün buraya klikləyin




Rüşvətxorluq təəssüratı yarada biləcəyi təqdirdə, hədiyyə və ya qonaqlıq təklif etmir və ya qəbul etmirik.

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

MARAQLARIN TOQQUŞMASININ İDARƏ OLUNMASI

Maraqların toqquşması şəxsi və ya bizneslə bağlı ola bilər və ədalətli və Imperial Brands şirkətinin maraqlarına uyğun qərarlar qəbul etmək qabiliyyətimizə təsir edə bilər. Biz münaqişələrin dürüstlüyümüzə xələl gətirməməsini təmin etmək üçün onları aktiv şəkildə həll etməyə çalışırıq.



- **Dürüst və şəffaf şəkildə fəaliyyət göstərir və şəxsi münasibətlərin və ya maliyyə maraqlarının Imperial Brands şirkətinin maraqları ilə ziddiyyət təşkil etməsi hallarına yol vermirik**
- **Hər hansı faktiki, potensial və ya ehtimal olunan maraq toqquşmaları məlum olan kimi onlarla bağlı məlumat veririk**
- **Imperial Brands şirkətinin maraqları naminə əməkdaşlıq edir və münaqişələri şəffaf şəkildə həll edirik**
- **Vəzifəmizdən şəxsi mənfəətimiz və ya şəxsi münasibətimiz olan birinin xeyri üçün sui-istifadə etmirik**






“Biz münaqişələrin dürüstlüyümüzə xələl gətirməməsini təmin etmək üçün onları aktiv şəkildə həll etməyə çalışırıq”

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ƏDALƏTLİ RƏQABƏT

Imperial Brands ədalətli, qanuni və dürüst rəqabətə sadiqdir.
Biz biznesimizə tətbiq olunan bütün antiinhisar və rəqabət qanunlarına əməl edirik.



- **Bazarınıza tətbiq olunan rəqabət qanunlarını, siyasətlərimizi və hər hansı digər müvafiq rəqabətlə bağlı təlim və ya təlimat materiallarını başa düşdüyünüzdən və onlara əməl etdiyinizdən əmin olun.**
- **Rəqabətə zidd müqavilələr bağlamayın (məsələn, qiymətlərin müəyyən edilməsi, təkliflərin saxtalaşdırılması, bazarın paylaşılması). Həmişə rəqiblərimizdən asılı olmayaraq fəaliyyət göstərin və rəqabət aparın**
- **Qiymət, ticarət şərtləri və ya yeni məhsulun təqdimatı kimi kommersiya baxımından həssas mövzuları rəqiblərlə müzakirə etməyin**
- **Kommersiya baxımından həssas məlumat alırsınızsa, bunu sorğulamadığınızı bildirərək cavab verin, qəbul etməyin və göndərən daha heç nə göndərməməlidir. Əgər toplantı zamanı belə məlumat almağa davam etsəniz, toplantını tərk edin və hadisə barədə dərhal yerli Hüquq məsləhətçisinə və ya Qrupun hüquqşünasına məlumat verin.**




Kommersiya baxımından həssas məlumat (CSI) nədir?

Kommersiya baxımından həssas məlumat (CSI) rəqibin davranışına təsir edə biləcək şirkətin kommersiya siyasəti haqqında hər hansı ictimai olmayan məlumatdır. Buraya şirkətin kommersiya strategiyası, gələcək qiymətlər, ticarət sirləri, əqli mülkiyyətlə bağlı məlumat, müştəri və təchizatçı qeydləri (lakin bununla məhdudlaşmır) daxildir. CSI-nin nədən ibarət olduğuna dair hər hansı şübhəniz varsa, yerli Hüquq Məsləhətçiniz və ya Qrupun hüquqşünasına müraciət edin.

> **Biz biznesimizə tətbiq olunan bütün antiinhisar və rəqabət qanunlarına əməl edirik**


Daxili resurslar üçün buraya klikləyin



← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

RƏQİBLƏRLƏ BAĞLI MƏLUMATLARININ ÖYRƏNİLMƏSİ

Biz rəqabət mühitinə nəzarət edirik və müştərilərimizin tələblərini qarşılamaq üçün biznesimizin inkişafı məqsədilə trendləri analiz edirik.



- **Məlumat toplayarkən, qəbul edərkən və ya mübadilə edərkən müvafiq rəqabət qanunlarına əməl edin**
- **Heç vaxt yazılı və ya şifahi, rəsmi və ya qeyri-rəsmi, kommersiya baxımından həssas məlumat və ya məlumatları rəqiblərlə (o cümlədən vasitəçilər və ya üçüncü tərəflər vasitəsilə) mübadilə etməyin.**
- **Bazar tendensiyaları və ya rəqiblərin fəaliyyəti (o cümlədən üçüncü tərəflər vasitəsilə) haqqında hər hansı yeni məlumat mənbəyi toplamazdan və ya almazdan əvvəl yerli Hüquq Məsləhətçisi, kənar hüquq məsləhətçiləri və ya Qrupun hüquqşünasından razılıq alın.**
- **Məlumat təqdim etdiyimiz hər hansı sənaye hesabatlarının və ya müqayisəli araşdırmaların (məsələn, qiymət/həcmlə bağlı məlumatlar) müvafiq şəkildə ümumiləşdirildiyindən, daha əvvəl baş verdiyindən və gələcəyə hesablanmış olmadığından əmin olun**

Rəqiblərlə bağlı məlumatların qəbul edilmiş mənbələri hansılardır?

- Mətbuat
- Şirkətin vebsaytları da daxil olmaqla, internetdə hər kəsə açıq mənbələr
- Nüfuzlu sənayə araşdırmaları
- İllik Hesabatlar
- Şirkət rəhbərlərinin ictimai çıxışları
- Dövlər orqanları ilə ictimaiyyətə açıq sənədlər



Daxili resurslar üçün buraya klikləyin







Biz rəqabət mühitimizi izləyir və biznesimizi inkişaf etdirmək üçün tendensiyaları təhlil edirik

İNSAYDER TİCARƏTİNİN QADAĞAN OLUNMASI

Biz şirkətin maliyyə göstəriciləri və ya gələcək planları ilə bağlı məxfi məlumatlarla ehtiyatla davranmağa çalışırıq. Əgər bu məlumat səhmlərimizin qiymətlərinə və ya sərmayəçilərin qərarlarına təsir edə bilərsə, o zaman, bu, "daxili məlumat" hesab edilir. Özünüzün və ya başqasının xeyrinə şirkət səhmləri kimi qiymətli kağızların alınması və ya satılması ilə bağlı qərarlar qəbul etmək üçün daxili məlumatlardan istifadə etmək qanunsuzdur.



- **Daxili məlumatları məxfi saxlayın və məlumatların yayılması ilə bağlı ciddi qaydalara əməl edin. Unutmayın ki, siz artıq Imperial Brands şirkətinin əməkdaşı olmasanız da, insayder ticarəti qaydaları tətbiq olunmağa davam edir**
- **Heç vaxt daxili məlumatı əvvəlcədən icazə almadan və yalnız vəzifənizin icrası zamanı tələb olunduqda paylaşmayın**
- **Daxili məlumatlara əsaslanaraq Imperial Brands, Logista və ya siyahıya alınmış hər hansı digər şirkətin qiymətli kağızlarını alqı-satqı etməyin**
- **Imperial Brands və ya digər açıq qeydə alınmış qiymətli kağızlar haqqında yalan və ya qeyri-dəqiq məlumat yaymayın**






“Bəzi əməkdaşların potensial daxili məlumatlara daha geniş şəkildə giriş icazəsi olacaq və onlar “şirkətin insayderləri” hesab olunacaqlar”

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

DƏQİQ MALİYYƏ VƏ QEYRİ-MALİYYƏ HESABATLARI

Fəaliyyətimiz haqqında dürüst və dəqiq hesabat verir və aktiv şəkildə saxtakarlıqla mübarizə aparan mədəniyyəti təbliğ edirik. Tam və dəqiq maliyyə və qeyri-maliyyə qeydlərinin aparılması bizə daha yaxşı biznes qərarları qəbul etməkdə kömək edir, xarici maraqlı tərəflərlə etibar yaradır və davamlı, uzunmüddətli uğur qazanmaq hədəflərimizi dəstəkləyir. Qeydləri və ya hesabları saxtalaşdırmaq və ya faktları təhrif etmək dələduzluq hesab olunur və biznesimiz və cəlb olunan şəxslər üçün ciddi nəticələrə səbəb ola bilər.



- **Bütün hesabatlarda, açıqlamalarda, proqnozlarda və təhlillərdə vicdanlı və dəqiq olun**
- **Heç vaxt yalan və ya yanlış məlumat hazırlamayın və ya təqdim etməyin, yaxud hər hansı tranzaksiyanın məqsədini təhrif etməyin**
- **Bütün qanunlara, xarici uçot tələblərinə və maliyyə və qeyri-maliyyə məlumatlarının təqdim edilməsi üzrə şirkət prosedurlarına əməl edin**
- **Maliyyə və qeyri-maliyyə hesabatlarının dəqiqliyi və ya tamlığı haqqında istənilən məsələni qaldırın**





“Fəaliyyətimiz haqqında dürüst və dəqiq hesabat verir və aktiv şəkildə saxtakarlıqla mübarizə aparan mədəniyyəti təbliğ edirik”




Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

GÖMRÜK VƏ VERGİ TƏLƏBLƏRİNƏ ƏMƏL ETMƏ

Imperial Brands korporativ və tütün məhsulları vergisinə dair bütün milli və beynəlxalq qanunlara əməl edir. Biz açıqlamalarımızda və sertifikasiya prosesində düsrütlük və şəffafıq nümayiş etdiririk və məhsullarımızın qeyri-qanuni ticarəti ilə mübarizəyə kömək etmək üçün bütün dünya üzrə gömrük və vergi orqanları ilə konstruktiv şəkildə əməkdaşlıq edirik. İstər işçi, istər Imperial Brands şirkətini təmsil edən və ya onun adından fəaliyyət göstərən şəxslər, istərsə də tranzaksiyalar apardığımız digər vergi ödəyiciləri tərəfindən həyata keçirilməsindən asılı olmayaraq vergidən yayınmanın aradan qaldırılmasına yönəlmiş siyasətlərimiz var.



- **Korporativ və tütün məhsulları vergisinə dair bütün milli və beynəlxalq qanunlara əməl edirik**
- **Qəbul edilən məhsullardakı hər hansı fərqlər və ya İzləmə və Nəzarət sənədlərindəki qeyri-dəqiqliklər barədə müvafiq gömrük orqanına məlumat veririk**
- **Biznes məqsədləri üçün səfər edərkən heç vaxt özümüzlə məhsul nümunələri aparmırıq**
- **Imperial Brands şirkəti adından fəaliyyət göstərən agentlərin, vasitəçilərin və vergi məsləhətçilərinin müvafiq yoxlama və müqavilə prosedurlarından keçməsini təmin edirik**



> **Biz açıqlamalarımızda və sertifikasiya prosesində düsrütlük və şəffafıq nümayiş etdiririk və bütün dünya üzrə gömrük və vergi orqanları ilə konstruktiv şəkildə əməkdaşlıq edirik**




Daxili resurslar üçün buraya klikləyin Qrupun Vergi Strategiyası


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

SANKSİYALARA VƏ TİCARƏT MƏHDUDİYYƏTLƏRİNƏ ƏMƏL ETMƏK

Biz qlobal miqyasda beynəlxalq sanksiyalara və ticarət məhdudiyyətlərinə əməl etməyə çalışırıq. Biz müvafiq sanksiyalara məruz qalan hər hansı üçüncü tərəf, şirkət və ya fiziki şəxslə biznes, ticarət, maliyyə və ya digər kommersiya əməliyyatları aparmamaq üçün prosedurlara riayət edirik.



- **Vəzifə və öhdəliklərinizlə əlaqəli sanksiyaları və ticarət məhdudiyyətlərini anlayın və yardıma ehtiyacınız olarsa, yerli Hüquq məsləhətçinizə və ya Qrupun hüquqşünasına müraciət edin**
- **Yalnız bizim kompleks yoxlama prosedurumuzdan keçmiş və təsdiqlənmiş üçüncü tərəflərlə (fiziki şəxslər və şirkətlər) iş aparın**
- **Beynəlxalq sanksiyaların və ya ticarət məhdudiyyətlərinin pozulması ilə bağlı heç bir şübhələri qəbul etməyin və ya onları görməzdən gəlməyin**
- **Sanksiyaların və ya ticarət məhdudiyyətlərinin iş apardığımız hər hansı üçüncü tərəfə (fiziki şəxs və ya şirkətə) şamil olub-olmadığını yoxlayın və sanksiyalardan yayınmaq və ya onlardan qaçmaq üçün nəzərdə tutulmuş müqavilələr bağlamayın.**






“Bizneslə məşğul olduğumuz bütün ölkələrdə beynəlxalq sanksiyalara və ticarət məhdudiyyətlərinə əməl etməyə sadiqik”

Daxili resurslar üçün buraya klikləyin


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ÇİRKLİ PULLARIN YUYULMASI

Biz yalnız qanuni müştərilər və distribyutorlarla əlaqə saxlamaqla biznesimizdə çirkli pulların yuyulmasının qarşısını almaq üzrə tədbirlər görürük. Çirkli pulların yuyulması çox vaxt mütəşəkkil cinayət və terrorizmlə əlaqələndirilir. Belə qurumların pulların yuyulması və ya öz fəaliyyətlərini və ya şəxsiyyətlərini ört-basdır etmək üçün Imperial Brands-dan istifadə etməməsini təmin etməkdən biz məsuluq.



- **Çirkli pulların yuyulmasının nə olduğunu və onun Imperial şirkətinə necə təsir edə biləcəyini anlayın. Şübhələndiyiniz və ya müşahidə etdiyiniz hər hansı problemi bildirin**
- **Yalnız təsdiq edilmiş müştərilərdən, distribyutorlardan və Imperial Brands şirkətinin iş apardığı və kompleks yoxlamalarından keçmiş digər biznes müəssisələri və ya fiziki şəxslərdən ödənişləri qəbul edin**
- **Yalnız ticarət etdiyimiz hüquqi və ya fiziki şəxsin adına olan bank hesablarından alınan və ya onlara göndərilən ödənişləri qəbul edin**
- **Böyük pul əməliyyatları, ofşor əməliyyatlar və ya anonim qurumların istifadəsi kimi qeyri-münasib maliyyə əməliyyatlarının baş verdiyini göstərən "xəbərdarlıq nişanları"na qəsdən və ya ehtiyatsızlıqdan laqeyd yanaşmayın**






Biz yalnız qanuni müştərilər və distribyutorlarla əlaqə saxlamaqla biznesimizdə çirkli pulların yuyulmasının qarşısını almaq üzrə tədbirlər görürük

Daxili resurslar üçün buraya klikləyin

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

TƏCHİZATÇILARLA ETİBARLI ƏLAQƏLƏR

Uğurlu olmaq üçün biz təchizatçılarla etibarlı və təhlükəsiz əlaqələrə və onlarla işləyərkən dəyəri maksimuma çatdırmaq və riskləri azaltmaq bacarığımıza güvənirik. Biz satınalma fəaliyyətlərimizi ədalətli, şəffaf və peşəkar şəkildə həyata keçiririk, etik davranış qaydalarına əməl edən və məsuliyyətlə davranan təchizatçıları seçib onlarla iş aparmağa çalışırıq.



- **Müəyyən edilmiş satınalma proseslərinə, o cümlədən lazımi kompleks yoxlamaların aparılmasına əməl edin**
- **Səlahiyyətiniz olmadığı təqdirdə təchizatçılar qarşısında yazılı və ya şifahi öhdəlikləri üzərinizə götürməyin**
- **Təchizatçıların etik və məsuliyyətli davranışa dair gözləntilərimizi əks etdirən Təchizatçının Davranış Kodeksini aldığından əmin olun**
- **Kodeksi və ya standartlarımızı poza biləcək təchizatçı fəaliyyətlərini qəbul etməyin və ya onlara laqeyd yanaşmayın Hər hansı problemləri satınalma komandasına və ya "Danış" kanalı vasitəsilə bildirin**





> **Uğur qazanmaq üçün biz təchizatçılarla etibarlı və təhlükəsiz əlaqələrə arxalanırıq**


Daxili resurslar üçün buraya klikləyin Təchizatçının Davranış Kodeksi

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

DÖVLƏT VƏ SİYASİ QURUMLARLA QARŞILIQLI ƏLAQƏ

Biz hökumətlər, siyasi partiyalar və namizədlərlə bir çox digər xarici maraqlı tərəflərlə əlaqə saxladığımız şəkildə qarşılıqlı əlaqə qururuq: açıq, etik şəkildə və yalnız qanuni biznes məqsədlərimizin həyata keçirilməsini dəstəkləmək üçün. Hökumətlərin və ya dövlət məmurlarının iştirakı ilə qeyri-münasib davranış Imperial Brands şirkəti üçün mühüm reputasiya və hüquqi risklər daşıya bilər.

Bəzi hallarda bizim öhdəliyimizdə siyasi töhfələr yer ala bilər. Hər hansı belə töhfələr ən yüksək şəffaflıq və hesabatlılıqla tənzimlənməli və şirkətin rəhbər prinsiplərinə uyğun olaraq təsdiqlənməlidir.




- **Hökumətlə qarşılıqlı əlaqələrin yalnız əvvəlcədən rəsmi şəkildə təsdiqlənmiş, təlim keçmiş əməkdaşlar və ya siyasi məsləhətçilər tərəfindən həyata keçirildiyindən əmin olun.**
- **Siyasi partiyalar və siyasi namizədlərlə qarşılıqlı əlaqələr zamanı şirkətin qayda və siyasətlərinə əməl edin**
- **Tənzimləyici qurumlar və ya xüsusi maraq qrupları ilə əlaqə və ya təsirə görə ödəniş etməyin**
- **Hökumətlər və ya tənzimləyici qurumlarla hər hansı birgə sənaye işindən əvvəl hüquqi məsləhət əldə edin**



Daxili resurslar üçün buraya klikləyin



Hökumətlərin və ya dövlət məmurlarının iştirakı ilə qeyri-münasib davranış Imperial Brands şirkəti üçün mühüm reputasiya və hüquqi risklər daşıya bilər



← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ƏTRAF MÜHİT VƏ CƏMİYYƏT

Biz ətraf mühitə və işlədiyimiz icmaların hüquqlarına hörmət edən tərzdə fəaliyyət göstəririk. Biz ətraf mühitə təsirimizi minimuma endirməyə və biznesimizi aparan insanların həyat fəaliyyətini dəstəkləməklə cəmiyyətə müsbət töhfə verməyə çalışırıq.

43 Ətraf mühitin mühafizəsi

44 Xeyriyyəçilik və könüllü fəaliyyətlərdə iştirak




> **Biz ətraf mühitə təsirimizi minimuma endirməyə və cəmiyyətə müsbət töhfə verməyə çalışırıq**

← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ



Ətraf mühitin mühafizəsi planetimizin ekoloji baxımdan dayanlıqlığı və gələcək nəsillərin rifahı üçün çox vacibdir. Biz resurslardan məsuliyyətli şəkildə istifadə etməklə, çirklənməni və tullantıları azaltmaqla və biomüxtəlifliyi qorumaqla ətraf mühitə təsirimizi minimuma endirməyə çalışırıq. Bundan əlavə, 2040-cı ilə qədər tullantıları sıfıra endirmək məqsədimizə uyğun olaraq, biz həm də karbon qazı emissiyalarını azaldacağıq və bərpa olunan enerji mənbələrini təşviq edəcəyik. Məsuliyyətli idarəetmə ətraf mühitimizə qayğı mədəniyyətini təbliğ etməklə insanları düzgün seçimlər etmək üçün maarifləndirmək və imkanlar yaratmaqdan ibarətdir.



- **Enerjiyə qənaət və enerji səmərəliliyi ilə enerji sərfiyyatını minimuma endirir və bərpa olunan enerjini təşviq edir, bununla da karbon qazı emissiyalarını azaldırıq**
- **Mənbəyində tullantıları azaldır və təkrar emala başlayırıq**
- **Su çatışmazlığı olan ərazilərdə sudan məsuliyyətli şəkildə istifadə edirik**
- **Ətraf mühiti qoruyur və biomüxtəlifliyi təşviq edirik**



> **Biz planetimizin gələcək nəsillər üçün mühafizəsinin vacibliyini dərk edir və məsuliyyətli tərəfdaş olmağa çalışırıq**

Daxili resurslar üçün buraya klikləyin Qrupun Ətraf Mühit Siyasəti
İnsanlar və Planetə dair Strategiya ESG Göstəricilərinin Xülasəsi


← MÜNDƏRİCAT SƏHİFƏSİNƏ QAYIDIN

XEYRİYYƏÇİLİK VƏ KÖNÜLLÜ FƏALİYYƏTLƏRDƏ İŞTİRAK



Biz fəaliyyət göstərdiyimiz icmalara müsbət töhvə vermək öhdəliyi daşıyırıq. Bu, işçilərin məşğuliyyəti, işgüzar əlaqələr və şirkətimizin nüfuzuna müsbət təsir göstərir və cəmiyyətdəki daha böyük rolumuzun mühüm hissəsidir. Xeyriyyəçilik fəaliyyətimiz şirkətimizin **İnsanlar və Planetə dair Strategiya** ilə uyğunlaşdırılır.

İşçilərə öz işlərinin bir hissəsi kimi icmalarını dəstəkləmək imkanı vermək təcrübələri zənginləşdirmək, əvəzində nəyisə vermək və digər insanların yaşayışları haqqında daha geniş məlumat əldə etmək yolu ilə rifahın artmasına kömək edə bilər.



- **Cəmiyyətin dəstəyini insanların həyatını yaxşılaşdırmağa yönəlmiş İnsanlar və Planetə dair Strategiya və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun layihələrə yönləndiririk**
- **Korporativ ianələri yalnız qanuni, rəsmi qeydiyyatdan keçmiş xeyriyyə təşkilatlarına edirik**
- **Imperial Brands şirkətinin məhsullarını və ya brendlərini tanıtmaq üçün heç vaxt xeyriyyə töhfələrindən və ya icma investisiyalarından istifadə etmirik**
- **Uşaqlara, siqaretlə bağlı xəstəliklərə, incəsənətə və idmana aid töhfələrdən uzaqlaşırıq. Uşaq əməyinin qarşısının alınmasına yönəlmiş fəaliyyətlər məqbuldur. Yerli tövsiyələrə istinad edin**

Daxili resurslar üçün buraya klikləyin İnsanlar və Planetə dair Strategiya

Leaf tərəfdaşlıq proqramımız

Bizim LEAF tərəfdaşlıq proqramımız fermerlərin dolanışıq və rifahı üçün vəsaitlərin təminatı hədəflərimizi dəstəkləyir və maliyyə dayanıqlığı, davamlı kənd təsərrüfatı və təhsil və təmiz içməli su kimi əsas ehtiyaclara çıxışla bağlı layihələri maliyyələşdirir. Bu proqram çərçivəsində həyata keçirilən fəaliyyətlər bu tövsiyələr xaricindədir.



LÜĞƏT







Ayrı-seçkilik

Cinsi, rəngi, irqi, fiziki məhdudiyyəti və ya iş və öz vəzifələrini yerinə yetirmə qabiliyyəti ilə əlaqəli olmayan hər hansı digər əsaslarla hər hansı bir şəxsə qarşı uyğun olmayan münasibət bəsləmək

Çirkli pulların yuyulması

Qanunsuz əldə edilmiş aktivlərin qanuni kimi görünən aktivlərə çevrilməsi üzrə əməliyyatların icrası.

Dələduzluq

Qrupun hesabına şəxsi mənfəət, Qrup üçün qazanc və ya başqa bir şəxsin və ya şirkətin xeyrinə mənfəət əldə etmək məqsədi ilə qəsdən aldatma. Bura maliyyə və ya qeyri-maliyyə məlumatlarının təhrif edilməsi, məlumatın açıqlanmaması və ya aktivlərin mənimsənilməsi, habelə digər cinayətlər daxil ola bilər.

Dövlət məmuru

Dövlət təşkilatında təyin edilmiş və ya seçilmiş istənilən növ qanunvericilik, inzibati və ya məhkəmə vəzifəsini tutan şəxs.

Əqli mülkiyyət

Başqalarının brendlərimizdən və innovasiyalarımızdan qazanc əldə etməsinə mane olan ticarət nişanları, dizayn hüquqları, patentlər və müəllif hüquqları kimi qanunla qorunan aktivlər.

Fişinq

E-poçt, mətn, vebsaytlar və ya telefon zəngləri vasitəsilə istifadəçi adları, parollar, rəqabət kəşfiyyatı və ya şəxsi və/yaxud bank məlumatı və ya giriş sistemləri kimi məlumatları etibarlı hesab olunan bir nəfərdən əldə etmək cəhdi.

İnsayder ticarət

Şirkətin səhmləri kimi qiymətli kağızların alqı-satqısı ilə bağlı qərarlar qəbul etmək üçün şirkətin maliyyə göstəriciləri və ya gələcək planları haqqında ictimaiyyətə açıqlanmayan məlumatlardan istifadə etmək.

İşçi heyət və Mədəniyyət (P&C) üzrə biznes tərəfdaşı

Biznes fəaliyyətində komanda ilə əməkdaşlıq edən Imperial şirkətinin həmkarı.



LÜĞƏT



Kompleks yoxlama

Üçüncü tərəf haqqında faktları və məlumatları yoxlamaq üçün risk və uyğunluq yoxlamaları və ya təftişlərini əhatə edən proses.

Korrupsiya

Rəhbər vəzifələri tutan şəxslərin vicdansız və saxta davranışları, çox vaxt şəxsi mənfəət üçün dövlət və ya şəxsi səlahiyyətdən sui-istifadəsi ilə əlaqələndirilir.

Maraqların toqquşması

Bir şəxsin fərdi və ya şəxsi maraqlarının onun peşə öhdəliklərini yerinə yetirmə üsullarına təsir edə bildiyi vəziyyət. Maraqların toqquşması maliyyə və ya qeyri-maliyyə xarakterli ola bilər.

Məxfi məlumat

Məxfi məlumatlar məhsul və proseslərin inkişafı, satış, marketinq və maliyyə məlumatları, biznes planları, rəhbərlik dəyişiklikləri və şirkətin alışları və birləşmələr haqqında məlumatları əhatə edə bilər. Şəxsi məlumatlar da məxfi məlumat hesab olunur.

Müasir köləlik

İstismar məqsədi ilə güc, məcburiyyət, zəiflikdən sui-istifadə, aldatma və ya digər üsullarla bir şəxsin işə götürülməsi, yerdəyişməsi, sığınacaqla təmin olunması və ya qəbulu. Bu, məcburi və/və ya insan alveri, uşaq əməyi, cinsi istismar, məcburi evlilik, borc asılılığını əhatə edir.

Qanunsuz ticarət

Məhsulların nəzərdə tutulmuş coğrafi bazarlardan və ya paylama kanallarından kənarda icazəsiz paylanması və ya satışı. Məsələn, saxta məhsullar və ya malların qaçaqmalçılığı.



Qisas

Başqasının qanun pozuntusu və ya nalayiq davranışı şübhəsini bildirdiyinə görə şəxsə qarşı arzuolunmaz rəftar və ya hər hansı zərər forması, məsələn, vəzifəsinin aşağı salınması, maaşın və ya iş şəraitinin azaldılması və ya işdən çıxarılması.

Rəqabət qanunları

Rəqiblər, müştərilər, distribyutorlar və digər üçüncü tərəflər arasında sövdələşmələri, eləcə də Imperial Brands şirkətinin mühüm bazar gücünə malik olduğu mühitlərdə davranışı tənzimləməklə azad bazarı təşviq etmək və istehlakçıları və biznes müəssisələrini qorumaq üçün nəzərdə tutulmuş qanunlardır.

Rəsmiyyəti asanlaşdırmaq üçün edilən ödənişlər

Müntəzəm olaraq görməli olduğu işləri sürətləndirmək üçün dövlət məmurlarına edilən ödənişlər.

LÜĞƏT



Rüşvət

Hər hansı kommersiya, müqavilə və ya şəxsi mənfəət əldə etmək üçün təklif edilən, vəd edilən və ya təqdim edilən təşviq və ya mükafatdır.

Sanksiyalar

Hökümətlər və beynəlxalq qurumlar tərəfindən müəyyən ölkələr, hüquqi və/yaxud fiziki şəxslərlə əlaqələri məhdudlaşdırmaq üçün tətbiq olunan tədbirlər. Bu, iqtisadi məhdudiyyətlər, ticarət məhdudiyyətləri, maliyyə sanksiyaları və səyahət qadağalarını əhatə edə bilər.

Şəxsi məlumatlar

Adı, əlaqə məlumatları, vəzifə, yeri və ya doğum tarixi kimi şəxsə aid məlumatlar.

Siyasi töhfə

Müəyyən bir siyasi partiyanı, siyasətçini və ya siyasi namizədi dəstəkləmək üçün bir şəxsdən və ya təşkilatdan verilən nağd pul, xidmətlər və ya hər hansı dəyərli formada əldə olunan hədiyyə.

Təqib

Başqasının ləyaqətini alçaldan və/və ya qorxuducu, düşmənçilik, alçaldıcı, həqarətli və ya təhqiramiz iş mühiti yaradan arzuolunmaz verbal, qeyri-verbal və ya fiziki davranışın hər hansı forması.

Vergidən yayınma və ya vergidən yayınmanın qarşısının alınması

Şirkət və ya hər hansı əlaqəli şəxs tərəfindən dövlət gəlirlərini bilərəkdən gizlətmək və ya vergi komissiyasından saxta yolla yayınmaq üçün edilən hər hansı bir əməl.

Xarici biznes tərəfdaşları

Müştərilər, təchizatçılar, distribyutorlar və ya agentlər kimi Imperial Brands şirkəti ilə kommersiya əlaqəsi quran şəxslər və ya təşkilatlar.

